## Əcnəbi tələbələr üçün qəbul qaydaları və miqrasiya prosesi

Xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasında ali təhsil müəssisələrinə qəbulu **https://portal.edu.az** onlayn platforması vasitəsilə həyata keçirilir.

Portalda qeydiyyat üçün tələb olunan sənədlər:

Xarici pasportun skanı;

Tibbi arayış (o cümlədən QİÇS, Hepatit B və C viruslarının daşıyıcısı olmadığını göstərən arayış);

Əvvəlki təhsil haqqında sənədin (diplom və transkriptin) apostil və ya rəsmi şəkildə leqallaşdırılmış nüsxəsi;

Dil biliyini təsdiq edən sertifikat (əgər varsa):

Bakalavr səviyyəsi üçün: minimum IELTS 5.0 və ya TOEFL 40;

Magistratura və digər təhsil səviyyələri üçün: minimum IELTS 5.5 və ya TOEFL 50.

Rəsmi dili ingilis dili olan ölkələrin vətəndaşları bu tələbədən azaddırlar.

**Qəbul prosesi:**

Portal üzərindən müraciət etdikdən sonra sənədlər müvafiq universitetin qəbul komissiyası tərəfindən nəzərdən keçirilir.. namizədin proqram üzrə dil biliklərini müəyyən etmək məqsədilə müsahibə keçirilir.

**UNEC-ə gəldikdən sonra tələb olunacaq sənədlər** (gəlişdən sonra 3 gün ərzində təqdim edilməlidir):

Təhsil sənədlərinin və transkriptin apostil olunmuş və ya leqallaşdırılmış orijinal nüsxəsi;

Təhsil sənədlərinin Azərbaycan dilinə tərcümə olunmuş və notarial qaydada təsdiq edilmiş surəti;

Xarici pasportun surəti (ən azı 2 il müddətinə etibarlı olmalıdır);

Tibbi arayış (QİÇS, Hepatit B və C viruslarına dair), arayış ingilis dilində və ya Azərbaycandakı klinikalardan alınmış ola bilər;

Dil biliyini təsdiq edən sertifikat (əgər varsa);

3x4 sm ölçüdə 10 ədəd foto (son 6 ay ərzində çəkilmiş);

Təhsil vizasının surəti;

Tələbənin müvəqqəti qeydiyyatda olduğu yaşayış ünvanına dair sənədin surəti.

## VİZA

Təhsil müəssisəsindən qəbul məktubu aldıqdan sonra, xarici vətəndaşlar öz ölkələrindəki Azərbaycan Respublikasının səfirliyi və ya konsulluğu vasitəsilə, yaxud onlayn "ASAN Viza" sistemi üzərindən yanlız elm və ya təhsil vizası üçün müraciət edə bilərlər.

## AZƏRBAYCAN RESPUBLİKASINDA XARİCİ VƏTƏNDAŞLARIN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN MÜVƏQQƏTİ YAŞADIQLARI ÜNVANDA QEYDİYYATA DÜŞMƏSİ

Azərbaycan Respublikasında **15 gündən artıq** müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər **yaşadıqları ünvanda qeydiyyata düşməlidirlər**. Bununla bağlı dövlət sərhəd keçid məntəqələrində Azərbaycan, rus və ingilis dillərində məlumat verilir.

Qeydiyyat üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin yaşadığı mənzilin sahibi və ya səlahiyyətli nümayəndəsi onun **pasportunun (və ya digər sərhəd keçid sənədinin)** surətini müvafiq icra hakimiyyətinə **15 gün** ərzində təqdim etməlidir. Müraciət **elektron şəkildə**, **elektron poçt vasitəsilə** və ya **şəxsi qaydada** həyata keçirilə bilər.

Əgər əcnəbi yaşayış yerini dəyişərsə, yeni ünvanda **5 gün** ərzində yenidən qeydiyyata düşməlidir. Bu halda da **dövlət rüsumu tutulmur**.

Əgər əcnəbi və ya vətəndaşlığı olmayan şəxs eyni ev sahibinə məxsus başqa bir ünvanda müvəqqəti yaşayırsa, **təkrar qeydiyyata ehtiyac yoxdur.**

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ ƏCNƏBİLƏRİN MÜVƏQQƏTİ YAŞAMASI

Azərbaycan Respublikasının ərazisində **müvəqqəti yaşamaq** istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər **müvafiq icazə** almalıdırlar. Bu icazəni **Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti** verir.

Müvəqqəti yaşama icazəsi üçün təqdim olunmalı sənədlər:

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş **müraciət forması**;

Pasportun və ya digər sərhəd keçid sənədinin surəti (sənədin etibarlılıq müddəti veriləcək müvəqqəti yaşama icazəsinin bitmə tarixindən **ən azı 3 ay çox** olmalıdır);

18 yaşına çatmayan pasportsuz şəxslər üçün doğum haqqında şəhadətnamənin və ya bərabər hüquqlu sənədin **notarial təsdiqli surəti**;

**QİÇS, Hepatit B və C** daxil olmaqla, **xəstəlik daşıyıcısı olmadığını** təsdiq edən tibbi arayış (səlahiyyətli icra orqanı tərəfindən təsdiq olunmuş siyahıya əsasən);

**3.5 x 4.5 sm** ölçülü **2 ədəd fotoşəkil**;

Yaşayış sahəsinə dair sənəd (əmlakın dövlət reyestrindən çıxarış, yaşayış orderi, icarə müqaviləsi və ya qanunvericilikdə nəzərdə tutulmuş digər sənəd);

Yaşayış sahəsini təqdim edən şəxsin **müraciəti** (əgər əcnəbi öz mənzilində qalmırsa);

Yaşayış sahəsini təqdim edən şəxsin **şəxsiyyət vəsiqəsinin surəti** (əgər ev əcnəbinin öz adına deyilsə);

**Dövlət rüsumunun ödənilməsini təsdiq edən qəbz**;

Əgər müraciət nümayəndə tərəfindən verilirsə, nümayəndənin səlahiyyətini və ya hüquqi nümayəndəliyini təsdiqləyən **sənədin surəti**.

**Qeyd:** Dövlət rüsumunun ödənilməsi müvəqqəti yaşama icazəsi təqdim edilərkən həyata keçirilir. Əgər **rüsum 30 gün ərzində** ödənilməzsə, **müvəqqəti yaşama icazəsi ləğv edilir**.

**Diqqət:** Əgər miqrasiya kartının arxa tərəfində "təhsil" (full-time education) qeydi varsa, həmin kart əsasında əcnəbi **əmək fəaliyyəti ilə məşğul ola bilməz.**

**Azərbaycan Respublikası daxilində miqrasiya kartı almaq üçün tələb olunan tibbi arayışın verildiyi mərkəzlər:**

1. "Respublika Diaqnostika Mərkəzi" (RDM)-20 Yanvar m/s yaxınlığı, Tbilisi pr.147
2. Xüsusi Müalicə Sağlamlıq Kompleksi- Badamdar şossesi 31
3. "İnternational Medical Center"- Nərimanov r. Aşıq Molla Cümə küç.103a)